Respublika.- 2019.-7 dekabr.- S.4.

# Dahilik, zaman və müasirlik



**Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikamızın müstəqilliyə qədəm yolu 1969-cu ildən başlayaraq ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanıb. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər sahələri isə ulu öndərin Azərbaycana böyük nailiyyətlər, fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olub. Beləliklə, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və tarixi şərait baxımından tamam fərqli olan dövrlər sadəcə eyni missiyanın, bir-birini tamamlayan iki mərhələsi kimi qiymətləndirilə bilər.**

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan verib. Ümummilli lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışmışdır.

Neft sənayesinin iqtisadi inkişafdakı rolunu müdrikliklə nəzərə alan ulu öndər Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına, neft-kimya sənayesinin tamamilə modernləşməsinə nail olub. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlanıb, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulub. Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılıb və gələcək yeni neft strategiyasının yol xəritəsi müəyyən edilib.

1993-cü il iyunun 15-də xalqın təkidi ilə Azərbaycanda yenidən hakimiyyətə gəlmiş ulu öndər Heydər Əliyev ağır iqtisadi və siyasi vəziyyətə düşmüş respublikanı fəlakətdən xilas etmək üçün neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmağa başladı. O vaxt "Azəri", "Çıraq", "Günəşli" yataqları ehtiyatlarının mənimsənilməsi üçün təsirli tədbirlər görüldü. Xarici neft şirkətləri ilə işbirliyinin qurulması zamanın tələbi idi və beynəlxalq praktika bunun üstünlüklərini geniş şəkildə nümayiş etdirirdi. Beləliklə, ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış Azərbaycanın neft strategiyasına start verildi. Xarici şirkətlərlə danışıqlar bərpa olundu.

Danışıqlar 1994-cü ilin martında Bakıda başlandı, sonra Türkiyənin İstanbul şəhərində davam etdirildi. Danışıqların həlledici mərhələsi Amerikanın Hyuston şəhərində keçirildi. Buradakı danışıqlarda "Azəri" və "Çıraq" yataqları ilə yanaşı, layihəyə "Günəşli" yatağının dərinsulu hissəsini də qoşmaq qərara alındı.

1994-cü il sentyabrın 20-də Bakıda dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri" və "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsinə və hasilatın pay bölgüsünə dair sonralar "Əsrin müqaviləsi" kimi tanınan məşhur saziş imzalandı.

Vurğulamaq lazımdır ki, "Əsrin müqaviləsi" Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri onun ikinci şah əsəri oldu.

Ulu öndər Heydər Əliyevin əsas neft strategiyasında Azərbaycanın milli mənafelərinin qorunması, genişsahəli beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, neftin dünya bazarına çıxarılmasının təmin edilməsi məqsədilə strateji əhəmiyyəti olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşması üçün gərgin günlər yaşanmış, aparılan danışıqlar uğurlu nəticə ilə yekunlaşmışdır. BTC layihəsini dəstəkləmək, Qazaxıstan və Türkmənistan neftini bu layihəyə cəlb etmək üçün ABŞ-ın iştirakı ilə Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Türkmənistan arasında İstanbul bəyannaməsi imzalanıb. Bununla da Heydər Əliyevin müəllifi olduğu "Yeni neft strategiyası"nın ən mühüm uğuru olan Bakı-Tbilisi-Ceyhan reallığa çevrilmiş oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 16-da "Neftçilər Günü" peşə bayramının təsis edilməsi haqqında" sərəncam imzaladı. Sərəncamda deyilirdi: **"Azərbaycanın neft və qaz sənayesinin inkişafında Azərbaycan xalqının dəyərləri insanları - böyük alimləri, mühəndisləri, geoloqları, neftçiləri və başqa mütəxəssisləri zəngin neft və qaz sərvətlərinin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüş, fədakarcasına çalışmış və xalqımızın tarixinə şanlı səhifələr yazmışdır. Azərbaycanın tarixində, onun iqtisadiyyatının inkişafında, xüsusilə müstəqilliyinin möhkəmləndirilməsində neft sənayesinin əhəmiyyətini nəzərə alaraq və neftçilərin əməyini yüksək qiymətləndirərək qərara alıram: Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında "Neftçilər Günü" peşə bayramı kimi qeyd olunsun".**

2019-cu il mayın 29-da Bakı sərgi mərkəzində XXVI Beynəlxalq Xəzər Neft və Qaz-2019 sərgi və konfransı, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi keçirilmişdir. Sərgidə Prezident cənab İlham Əliyev nitq söyləmiş və demişdir ki, müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki məhz o, Azərbaycan rəhbərliyinə gələndən sonra ölkəmizdə vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu və xarici investorlar bizə inandı. Çünki o vaxt inam əsas şərt idi. Bu inam olmasaydı Azərbaycana heç kim böyük sərmayə qoymazdı. Çünki Azərbaycan o vaxt çox riskli bir ölkə kimi tanınırdı və investorları buraya cəlb etmək üçün böyük səylər göstərmişdir.

Heydər Əliyevin əsasını qoyduğu tarixi nailiyyətlər bu gün real nəticələrlə davam edir. Ulu öndərin formalaşdırdığı milli dövlətçilik ənənələri qorunur. Beləliklə, ümummilli lider yalnız xatirələrdə yaşamır. Bu böyük şəxsiyyətin əzəmətli obrazı təkcə onun xatirəsinə xalq etimadının təcəssümü kimi ucaldılmış abidələrdə əks olunmur. Dahi şəxsiyyət Azərbaycanın bu gün də davam edən uğurlarında yaşayır. Heydər Əliyevin müdrik ideyaları ölkəmizin gələcəyinə yönəlmiş strateji hədəflərini müəyyən edir.

Ulu öndər xalqın milli nailiyyət simvoluna çevrilmiş tarixi şəxsiyyətdir. Bu uğurların ən mühümü onun qurub-yaratdığı müstəqil Azərbyacan dövlətidir. Ümummilli lider şərəfli ömür yolu ilə tərcümeyi-halını böyük bir xalqın tarixinə çevirməyi bacarmış dünya miqyaslı şəxsiyyətdir.

Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın gələcəyi ilə bağlı böyük ideallarının həyata keçirilməsi bu gün Prezident cənab İlham Əliyevin missiyasıdır. Dövlət rəhbərimiz öz tarixi missiyasını əzmlə həyata keçirir. Onun ölkəmizə qazandırdığı nailiyyətlər təkcə Azərbaycanın deyil, ümumilikdə türk dünyasının, İslam aləminin gələcəyinə işıq saçır. Dövlət başçımızın, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın timsalında Azərbaycan bəşəriyyətə sevgini, şəfqəti, xeyirxahlığı, maarifi, mədəniyyətlərarası dialoqu, sülh və tolerantlığı aşılayır, ölkələr və cəmiyyətlər arasında mənəvi körpüyə çevrilir...

**Ceyhun MƏMMƏDOV,**
**"Azpetrol LTD" MMC-nin direktoru, Yeni Azərbaycan Partiyasının üzvü.**